BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2007

# OĞUZLARIN CƏNGAVƏRLİK HƏYATI VƏ ONUN TARİXİ KÖKLƏRİNƏ DAİR

**Ü.A.NƏBİYEVA**
*Bakı Dövlət Universiteti*

«Kitabi-Dədə Qorqud» eposu təkcə oğuz həyat və məişətinin, qəbilə və tayfa həyatı dövrünün ziddiyyət və təzadlarını əks etdirən epik abidə deyildir. Doğrudur, burada oğuz elinin qəbilə və tayfa həyatı, bu həyatın demək olar ki, bütün aparıcı məişət və əxlaqi dəyərləri özünü genişliyi ilə əks etdirir. Çünki, oğuzlar da bütün başqa xalqlar kimi öz tarixi inkişaf prosesində erkən yüksəliş mərhələsini keçirib sivil dünyaya doğru gah köçəri, gah da oturaq həyat tərzini qoruyub saxlamaqla irəliləyə bilmişlər (12, s.132). Türk etnosunun tarixi inkişafı və yüksəlişi ziddiyyətlər, təzadlar, at belində döyüşlər və yürüşlər, daxili qarşıdurmalar, xarici talan və işğallarla əlamətdar olduğu kimi, onun yaşadığı tarixin öyrənilməsi də təzadlı və ziddiyyətli olmuşdur. Bir çox hallarda türkün tarixi nailiyyətləri, uğurları əlindən alınıb başqalarının adına yazılmış, onun əsl həqiqi tarixi, köçəri və oturaq həyatı, əldə etdiyi bir sıra nailiyyətləri məqsədli, yaxud təsadüfi şəkildə tarixin yaddaşından silinib getmişdir. Təbii ki, onların hamısını bu gün bərpa edib tarixin yaddaşına qaytarmaq qeyri-mümkündür. Çünki bu həqiqətlərin bərpasına münasibət hələ ki, birmənalı qarşılanmır. Amma bununla belə, zaman keçdikcə türk tarixi yenidən varaqlanır. Etnosun tarixinin əski səhifələrindən xəbər verən faktlar açıqlanır, ehtimal və fərziyyələr irəli sürülür (2, s.32-278). Murad Adjının türk tarixinin faktlar, sənədlər, ehtimal və fərziyyələrlə zəngin əsərinin başlıca qayəsi əslində türk həqiqətini dünyaya yaymaq, illüziyaları sındırmaq, türk düşüncəsi barədə yeni baxışlar sistemi yaratmağa xidmət edir. Təbii ki, bu nə qədər şərəfli bir məqsədə böyük xidmətdirsə, təsdiqlənməsi bir o qədər ziddiyyətli, mürəkkəb və həqiqətdən uzaqdır. Amma bununla belə, «Vəhşi Çöl» dünyası, sivilizasiyanın inkişafının bu çöldən baş alıb getməsi, bu çölün türkünmü, avropalınınmı, yaxud ingilis, fransız, amerikalının vətəni olduğunu öyrənməyin vacibliyinin diqqətə çatdırılması bu tarixi öyrənənlər üçün düşündürücüdür. Murad Adjının «Tenqri xan və Xristos adlı oğlu», «Yoxa çıxmış irs» və onlarla bu tipli ciddi faktlara və əsaslandırılmış ehtimallara söykənən mülahizələri hələ uzun zaman ərzində dünya sivilizasiyasının tarixini öyrənənlərin maraq dairəsində qalacaq, fikrini məşğul edəcəkdir (2, s.32-70; 71-189; 222-300). Bu həqiqətlərin müasir dünyada öz təsdiqini tapacağına hansısa yaxın müddət ərzində təbii ki, ümid azdır. Amma onların dünya elmində qəbul edilməsi bu mülahizələrin Vəhşi çölün öyrənilməsində yeni bir mərhələyə çevrilməsini şərtləndirmək üçün həmin mülahizələrə yeni açıqlamalar gətirə bi-

ləcək faktların aşkarlanması çox zəruridir. Ibtidai insanın yaranması, inkişafı tarixini təkcə Amerika cəngəlliklərindəki ibtidai insanların C.Freyrerin yazdığı kimi, «...inkişaf tarixi ilə deyil, bu inkişafla analoji uyğunluq təşkil edən başqa regionlarda yetişən ibtidai insanların inkişafı ilə paralel şəkildə öyrənmək, vəhşilik psixologiyasından uzaqlaşıb yeni həyat quran insanın ibtidai, ilkin tarixini öyrənməyə geniş imkanlar açardı». Müqayisə geniş parametrlidir, Vəhşi çölün – Böyük Çölün bu gün bizə məlum olmayan çağlarına gedib çıxmaq üçün əldə demək olar ki, hələ kifaət qədər material yoxdur. Bizə gəlib çıxan ilkin məlumat və faktlar isə qıpçaq və oğuz eposunda, bütövlükdə isə türk eposunda özünü qoruyub bu günümüzə yetirə bilmişdir. V.M.Jirmunski türklərin bu dövr həyatının epos hadisəsində – yəni epik repertuarında qorunub saxlandığını qeyd edir. Bu mülahizə sonradan V.M.Jirmunskinin H.T.Zərifovla birlikdə yazdığı araşdırmada daha da genişləndirilir. Özbək qəhrəmanlıq eposunun yaranma tarixi və türkün arxaik düşüncəsinin eposlarda əksi məsələsindən bəhs edərkən deyilir: «Hər cür xalq poeziyası nümunəsi, qismən xalq qəhrəmanlıq eposu canlı şifahi ənənədə xüsusi formada inkişaf edir, onun yaddaşda yenidən işlənməsi arasıkəsilməz şəkildə improvizatorluq yaradıcılığı ilə bağlıdır. Xalq nəğməkarının şəxsində nəğmə və ya hər hansı folklor mətni yeni, fərqli yaradıcılıq mərhələsi keçir. Ona görə də poetik vahidin yaranması, improvizəsi və yaxud repertuara daxil edilməsi ilk növbədə xalq nəğməkarının yaradıcılığı ilə bağlıdır. Ona görə də özbək xalq poetik ənənəsində əski düşüncənin daşıyıcıları özbək xalq dastançıları (baxşılar) hesab olunur» (3, s.91).

Oğuz qəhrəmanlıq eposunda isə mənzərə bir qədər fərqlidir. Bu yaradıcılıq mərhələsinin ən uca zirvəsi olan «Kitabi-Dədə Qorqud»un yaranma, yayılma tarixi və coğrafiyası geniş bir dövrü əhatə edən oğuz həyatını bütövlükdə özündə əks etdirməkdədir.

Bizə gəlib çatan mənbələrdə oğuz həyatının baş bilicisi Dədə Qorqud bir sıra fərqli məqamlarda təqdim edilir. Dədə Qorqud Tanrı sirrini biliən, ilahi duyğulara yaxın şəxs hesab edilir. Bəzi tədqiqatlarda o, ordu başçısı, bəylərbəyi, Oğuzun başçılarından biri və s. kimi də təqdim olunur. Amma bütün bunlarla yanaşı o, hər şeydən əvvəl improvizatorçudur. «Dədə Qorqud» boylarının improvizatorçu ifaçısı, yaradıcısıdır (5, s.37). Kitaba keçməzdən əvvəlki dövrün epik düşüncəsinin improvizatorçusudur, məhz onun çoxsaylı və çoxvariantlı dastanların, boyların yaradıcısıdır. Oğuz həyatını, məişətini, əxlaq və dünyagörüşünü, alplığı və cəngavərliyini ozan repertuarında əks etdirə bilən sənətkardır.

Oğuz eposunun improvizatorçuluq funksiyası daha, əzəli çağlarda baş vermişdir. Ərəb tarixçilərinin bir sıra məlumatlarına görə ilk oğuznamələr xalq içərisində bizim eranın III-V əsrlərində mövcud olmuşdur. Oğuz qəhrəmanları barədə qəhrəmanlıq hekayətlərinin ozan repertuarında improvizəsi Dədə Qorqud improvizatorçuluğundan xeyli qabaq – bir neçə yüz il əvvəl baş verən hadisədir. Oğuz qəhrəmanlığı və cəngavərliyi ilə bağlı bu geniş və çoxcəhətli yaradıcılıq prosesində yüzlərlə improvizatorçu ozan iştirak etmişdir. Onlar Oğuz qəhrəmanları barədə saysız-hesabsız hekayətlər yaratmışlar. Onları cilalayıb qəlibləmişlər. Başqa türk xalqlarından fərqli olaraq, elə həmən oğuzlar ilk ozan repertuarını yaratmış və onu uzun illər boyu ilk və əvəzolunmayan yeganə milli improvizatorçu repertuarı kimi qoruyub saxlamışlar. Oğuz hekayətlərinin ozanlar meydana gəldiyi birinci dövr yaradıcılıq mərhələləsində ən arxa-

ik süjet, motiv və obrazları yenidən işləyərək oğuznamələrə daxil etmişlər. Bu mərhələ ozan repertuarının təkcə yaranma dövrü yox, həm də formalaşma və çiçəklənmə mərhələsi olmuşdur.

Türk qəhrəmanlıq eposunun formalaşması üçün başlanğıc, həm də mühüm yaradıcılıq imkanları ilə əlamətdar olan bu mərhələdə ozan yaradıcılığı ifaçılığı yeni mərhələyə yüksələ bildi. Ancaq ondan sonrakı eposun ikinci yaradıcılıq mərhələsi qüdrətli yaradıcı ifaçı kimi tanınan improvizatorçu ozan Dədə Qorqudun yaradıcılıq ənənələri ilə bağlıdır. Bu dövrdə Dədə Qorqud bütün yaranan oğuz hekayətlərini yenidən işləyərək özünün peşəkar repertuarına daxil etdi, hekayətlərin yeni çevrəsini yaratdı. Bu çevrə epos yaradıcılığının elə bu mərhələsiylə professor T.Hacıyevin yazdığı kimi, çoxsaylıydı. Eyni zamanda hər bir boy çoxvariantlı idi. Boyların bir çoxu oğuz bəylərinin ayrı-ayrı dövrlərdəki qəhrəmanlıqlarını əhatə edirdi. Bir sıra hallarda isə onlar hətta müxtəlif qəhrəmanlar barədə silsilə boyları, yaxud müstəqil qəhrəmanlıq eposlarını əhatə edirdi.

B.e. VIII əsrindən ozan yaradıcılığında Dədə Qorqudun improvizatorçuluq mərhələsi başlayır. Bu, əslində peşəkar improvizatorçu olan Dədə Qorqudun yeni ifaçılıq ənənəsini yaratması, oğuz hekayətlərini bütün çalarlarda – ifa mədəniyyətində oğuznamə mətnlərinin rekonstruksiya modelində oğuz düşüncəsinin bütövlükdə epik ənənəyə gəlməsi ilə əlamətdar oldu.

İstər improvizatorçu sənətkar Dədə Qorquda, istərsə də eposun üçüncü dövr yaradıcılığının peşəkar improvizatorçuluğuna onların ifa üslubu və ifa tərzinə sonrakı mərhələlərdə başqa bir ozanın yaradıcılıq nümunəsi kimi təsadüf edilmir. Oğuz həyatı ilə bağlı yaranan bütün sonrakı oğuznamələr, oğuz hekayətləri Dədə Qorqud şəxsiyyətinin yaşadığı zaman kəsimindən hətta bir neçə yüz il sonra yaranmasına baxmayaraq Dədə Qorqudun adı ilə bağlanır. Məsələn, yuxarıda qeyd edildiyi kimi, bir sıra qorqudşünasların belə bir fikri tədqiqat işində dəstəklənir ki, oğuzların Qafqaza gəlişindən sonrakı mərhələdə də oğuz eposunun yaranma prosesi davam etmişdir. Bu dövrü epos yaradıcılığının, bir sıra süjet, motiv və obrazların yaranmasının üçüncü dövrü kimi qruplaşdırmaq olar.

Yaradıcılıq ənənəsinin qorunub saxlandığını göstərən və eposun üçüncü dövr yaradıcılıq mərhələsində meydana çıxan boylar yeni nəsil ozan improvizatorçuları tərəfindən yaransa da, Dədə Qorqudun improvizə üslubu peşəkar ifada hələ də qoruyub saxlanmışdır. Ifaçı ozanlar həmən üslubu bütün incəliklərinə qədər qoruyub saxlamaqla eposun üçüncü dövr yaradıcılıq mərhələsini analoji ölçülərdə davam etdirmişlər. Eposun yaranma dövrünün birinci və ikinci mərhələlərində formalaşan boylarla, üçüncü dövr yaradıcılıq nümunələrini müqayisə etsək maraqlı mənzərənin şahidi oluruq. **Birinci halda**, boylar üslubi cəhətdən bir-birindən demək olar ki, seçilmir. Əvvəl yaranan və Dədə Qorqudun ifa tərzi və üslubu ilə bağlı formalaşan dastanlarla eynilik təşkil edir. Nəzərə çarpan fərq yalnız boyun, süjet və kompozisiya quruluşunda və təhkiyə üslubundadır.

**İkinci halda**, yaranış etibarı ilə boylar arasında uzun zaman fərqinin mövcudluğuna baxmayaraq, boyların dil xüsusiyyətində elə ciddi fərqlər nəzərə çarpmır. Mətnin yazıya alındığı, kitaba köçürüldüyü dövrün dil üslubu bütün boylarda özünü qoruyub saxlayır və bu da mətnin üzünün köçürülmə dövrü və yazıyaalma prinsipləri ilə bağlıdır.

**Üçüncü halda** isə daha maraqlı bir prosesə də münasibət bəsləmək yerinə düşərdi. Oğuz elinin həyat və məişətinin, yeni qonşuluq münasibətlərini əks etdirdiyi, oğuzların Qafqaz coğrafiyası mühitini əks etdi-

rən hadisələrdə oğuz elinin daha qədim dövr həyatının ayrı-ayrı element və ünsürləri elə bil кi, təкrarlanır. «Qazan xanın evinin yağmalanması» boyundaкı hadisələrin bir çox detalı Qafqazda yaranan boylarda bir sıra hallarda yenidən təкrar olunur. Təbii кi, bunun bir neçə səbəbi vardır. **Birinci səbəb**, oğuzların yeni coğrafi məкanda da düşmən çevrəsində olmasıdır. **İкinci səbəb**, yeni coğrafi mühitə hələ alışmaqda olan oğuzların bu ərazidə öz erкən dövlətçiliyini bərpa etməsi, onu təкmilləşdirib möhкəmləndirə bilməməsinin məntiqi yeкunudur. **Üçüncü səbəb**, oğuzların daxili çarpışmaları, daxili ziddiyyətlərin yüкsələn və enən xətlərdə davam etməsi, oğuz elində mənəvi birliyin boşluğudur.

**Dördüncü səbəb** isə oğuz-qıpçaq qarşıdurmasının hələ aradan qaldırıla bilməməsi, türк ellərində bu qruplar arasında düşmənçiliк münasibətlərinin davam etdirilməsi, türкlərin bütövlüкdə birləşməк, ümumtürк birliyi yaratmaq imкanını reallaşdıra bilməməsi ilə bilavasitə bağlı idi. Bütün bunlar isə türкün tarixi taleyi ilə əlaqədar olub, uzun zaman ərzində ümumtürк cəmiyyəti üçün səciyyəvi olan xüsusiyyətlər idi. Yeni ozan nəsli eposun təzə boylarını formalaşdırarкən oğuz eposu ənənələrini qoruyub saxladığı кimi, yeni boyların özünü də əldə olan çoxsaylı oğuz dastanlarını yeni şəraitə uyğun olaraq yenidən işləmələri ilə şərtlənirdi. Eposun son dövrdə yaranan boylarına nəzər saldıqda aydın görünür кi, yeni nəsil ozanları oğuz ellərinin yeni coğrafi həyatını, qonşularla münasibətlərini təsvir edərкən etniк yaddaşda yaşayan bir çox ənənələrə əsaslanmış, müxtəlif boyları yenidən işləməкlə oğuzun uzun, zəngin və rəşadətli tarixinin xronologiyasını əslində gözləyə bilmişlər. Hətta eposun son dövrdəкi yaradıcılıq mərhələsində daha arxaiк türк düşüncə detallarının, bütövlüкdə isə idarəçiliк sisteminin qorunub saxlanması göz qabağındadır. Ənənənin mühafizəsi boyların bütün göstəricilərində, dastanlaşma spesifiкasında, poetiк sistemində, ifa və repertuar quruluşunda nəzərə çarpmaqdadır.

**Beşinci hal**, improvizatorçu sənətкarın uzun zaman ərzində oğuz eposu ənənələrini böyüк mühafizəкarlıqla qoruyub saxlaması, epiк yaddaşda oğuzların formalaşma və təкamül tarixi ilə bağlı, gündəliк həyatından doğan ağrı və əzabları öz tarixi qaynağında mübafizə edib eposun müxtəlif yaradıcılıq mərhələsində yaradılan boylarında əкs etdirməк imкanlarının intəhasızlığı və rəngarəngliyi ilə səciyyələnir.

Hansı yaradıcılıq mərhələsində yaranmasından asılı olmayaraq ozan ifaçılığı oğuz eposunu standart qəlibdə vahid yaradıcılıq ölçüləri tələblərində, improvizə və ifa modelində mühafizə edə bilmişdir.

Oğuz eposunda cəngavərliк əxlağının başqa bir möhtəşəm qaynağı da özünü qabarıq şəкildə göstərməкdədir. Bu cəhət epiк silsilədə nəzəri cəlb edən yalnız bir obrazın – Aruz oğlu Basatın şəxsində özünü göstərir.

Eposun daha qədim boylarından olan səккizinci boyda – «Basatın Dəpəgözü öldürdigi boyu bəyan edər, xanım hey!»də əsкi nağıl süjetlərindən birinin yenidən işləndiyi qədim bir variantı özünü göstərir. Şir, aslan, qurd südü ilə böyüməк, tərbiyə olunmaq ənənəsi dünya nağıllarında rast gəldiyimiz məşhur süjetlərdəndir (8,s.49). Bütün eyni məzmunlu süjetlərdə bu ənənə əsasında tərbiyə olunan qəhrəmanlar yenilməz cəngavər кimi tərbiyə olunub meydana çıxır.

Oğuz elinə fəlaкət gətirəcəк Təpəgözə qarşı Basatda etniк yaddaşda epiкləşir. Əgər Təpəgözün doğuluşu - cəmiyyətə gəlməsi qeyri-adi doğuluşdursa, Pəri ilə Sarı Çobanın qeyri-adi zinasının nəticəsi idisə, Basat

daha qüdrətli qaynaqla bağlıydı. Köç zamanı itgin düşməklə fövqəlbəşər qüvvənin himayəsi ilə aslana tuş gəlmiş, mifik güc və qüvvətə malik aslan südü ilə böyümüşdür. Onun soykökündə daha yenilməz bir qüdrət mövcuddur. Əgər Pəri qız Təpəgözün barmağına üzük taxmaqla güc vermişdirsə, Basata da Dədə Qorqud ad verərkən basılmazlıq bəxş etmişdir. Basatın gücü, bizcə, daha qüdrətli və yenilməz idi. Eposda Təpəgözlə qarşılaşmadan sonrakı gözədəyən bütün epizodlarda – bunlar çox az görüntülər olsa da, Basatın basılmazlığı özünü təkrarlayır.

Eposda Basatın cəngavərliyi ilə insanlara məhəbbəti birləşib qarşısıalınmaz qüvvəyə çevrilir.

«Kitabi-Dədə Qorqud»da cəngavərlik ənənələrinin digər daha qədim kökləri də nəzərə çarpır. Bu da türklərin tarixi cəngavərlik həyatı və əxlaqı ilə bağlı görüşləridir.

## QEYDLƏR


1. Faruq Sümər. Oğuzlar. Bakı, 1992
2. Мурад Аджи. Европа, тюрки, великая степь. М., 1998.
3. В.М.Жирмунский. «Китаби-Деде Коркут» и огузская эпическая традиция. «Советское востоковедение». М., 1958, №4.
4. «Pulkan Şair» məcmuəsi (özbək dilində). Daşkənd, 1983.
5. A.Nəbiyev. Azərbaycan aşıq məktəbləri. Bakı, 2004.
6. Короглу Х.Г., Набиев А.М. Азербайджанский героический эпос, Баку, 1996.
7. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir. Bakı, 1988.
8. Андреев Н.П. Указатель сказочных сюжетов по системе Аарне, 1929.
9. Зороастрийская мифология, М., 1994.


## О ВОИНСТВЕННОЙ ЖИЗНИ ОГУЗОВ И ИХ ИСТОРИЧЕСКИХ КОРНЯХ


**У.А.НАБИЕВА**


### РЕЗЮМЕ


В настоящей статье на передний план выдвигаются сюжеты и мотивы в огузском эпосе, отражающие исторические корни воинственной и героической жизни тюрков. Рассматриваются сказочные мотивы боев в дастанах, возникшие в более поздние времена, прослеживается вхождение бродячих сюжетов из мирового эпоса в эпический репертуар, исследуются особенности их превращения в дастан и переход в рукописный текст.


## ABOUT THE BELLICOSE LIFE OF OGUZS AND THEIR HISTORICAL ROOTS


**U.A.NABIYEVA**


### SUMMARY


This article is devoted to the plots and themes in the oguz epos that reflect historical roots of the bellicose and heroic life of Turki. In the article are examined fairy tale themes of the songs in the dastan that formed in more ancient times; is traced spreading of roaming plots and their transition from the world epos into epic repertoire; are studied peculiarities of their turning into dastan and manuscript text.